MƏĞLUB ET C

**Məlumat üçün baxın**

www.moh.gov.ge və ya www.ncdc.ge

**əlaqə saxlayın**

1505 və ya 116001

GÜRCÜSTAN ƏMƏK, SƏHİYYƏ VƏ SOSİAL MÜDAFİƏ NAZİRLİYİ

NCDC

HRU Sağlamlığın Müayinəsi İttifaqı

# MƏĞLUB ET C



# C hepatiti haqqında nə bilməliyik?

## C HEPATİTİ NƏDİR?

Hepatit qaraciyərin iltihabıdır. Onu başqa başqa virus, bakteriyalar,  bəzi dərman, toksin, alkoholun artıq istifadəsi və başqaları əmələ gətirə bilər. Halbuki hepatitin əmələ gəlməsinin ən çox səbəblərindən birini A, B və C hepatiti virusu təşkil edir.

## C HEPATİTİ VİRUSU BAŞQASİNA NECƏ KEÇİR?

C hepatiti virusu insan orqnizminə bu virusla yoluxulmuş qan və orqanizmin başqa bioloji maye vasitəsi ilə soxulur. Bunlar bu cür baş verə bilər:

- Çirklənmiş iynə və ya şpris və ya başqa tibb alətinin istifadəsi ilə;
- Yoluxmuş anadan uşağa;
- Cinsi əlaqə yolu ilə.

Anadan uşağa C hepatiti virusunun keçməsi riski aşağıdır və 5 %-dan artıq deyil. Həmçinin cinsi əlaqə yolu ilə keçmə riski də aşağıdır (orta 2%).

Bundan başqa, C hepatiti virusunun keçməsi ümumi işlədilən üzqırxan, dırnaqtutan və ya diş fırçasının istifadəsi ilə mümkündür.

## C HEPATİTİNİN NƏ SİMPTOMLARI VAR?

C hepatitinin hallarının böyük hissəsi tamamilə simptomsuz olur və yoluxmuş insan onu hiss edə bilmir.

Bəzən C hepatiti ümumi zəiflik, bədənin sağ yanı nahiyyəsində ağırlığın hiss olunması, əl-ayağın ağrıları, dərinin səpməsi və sair ilə xarakterizə olunur.

## C HEPATİTİNİN DİAQNOSTİKASİ NECƏ KEÇİRİLİR?

Virusun aşkar olunmasının yeganə yolu laboratoriya diaqnostikasıdır. C hepatitinin aşkar olunması üçün lap başdan skrininq testi deyilən yoxlama keçirilir ki, buna da bir çox tibbi müəssisələrdə əlyetərlilik pulsuzdur.

Skrininq ilə müsbət olan insan üçün, sonralar C hepatitinin miqdar analizi keçirilir ki, bununla da müəyyən edilir ki, pasient yoluxubdur, yoxsa xəstəlik özünümüalicə ilə başa çatdırılıbdır. Virusun orqanizmə soxulmasında sonra özünümüalicənin təxminən 20-25 %-da baş verməsi mümkündür və bu insanlara müalicə lazım gəlmir. Halbuki ilkin test onların bütün həyatı boyu müsbət olacaqdır.

## C HEPATİTİNİN MÜALİCƏSİ NECƏ BAŞ VERİR?

Hazırda Gürcüstanda C hepatitinin eliminasiya proqramı fəaliyyət göstərir ki, onun çərçivəsində də pasient üzərində xəstəliyin formasının müəyyən edilməsi və müalicənin seçilməsi üçün müvafiq müayinələr aparılır. Bundan sonra pasient üzərində müalicə müasir yüksək səmərəli dərmanlarla aparılır ki, onlar da pasientlər üçün tamamilə pulsuzdur. Müalicə göstəricisi 95 %-dan artıqdır.

## C HEPATİTİNİN MÜALİCƏ OLUNMADAN HANSİ ÇƏTİNLİKLƏRİN BAŞ VERMƏSİ MÜMKÜNDÜR?

Xroniki C hepatiti zamanı qaraciyərin ciddi şəkildə zədələnməsinin baş verməsi və qaraciyərin siroz və xarçənqlə mürrəkkəbləşməsi mümkündür

MƏĞLUB ET C